# TARİX

UOT 94 «16/18»

## ERMƏNİ İDDİALARI: TARİXDƏN BU GÜNƏ...

**S.A.MƏMMƏDOV**
*Azərbaycan Pedaqoji Universiteti*
*Heblo86@mail.ru*

*Məqalədə İrəvan yaxınlığındakı Cəfərabad (indiki Arqavand) qəsəbəsində saxlanılan XV əsr ərəbdilli epiqrafik abidənin materialları və ermənidilli yazılı mənbələr təsdiq edirlər ki, "bayat", "muğanlı", "ayrımlı", "kolanı", Əştərək, Yeqvard, Ağavnatun tayfaları nəsil-dən-nəslə 347 il bu ərazidə hökmranlıq etmişlər. Məqalədə həmçinin ilk mənbələr əsasında erməni xalqının təqribən e.ə. I əsrin I yarısında Fərat çayının sol sahilində formalaşması da izlənilmişdi.*

**Açar sözlər:** ərmən, turizm, türkologiya, hay, Ərsaq, Aramey, Balxaş

Nüfuzlu rus və erməni alimləri İ.A.Orbeli və İ.M.Dyakonov (9;11) qeyd edirlər ki, erməni xalqı, təqribən e.ə. birinci minilliyin birinci yarısında ilk dəfə Fərat çayının yuxarı axarında formalaşmışdır...

Əsrin I yarısının sonunda erməni tayfaları təxminən Urartu vilayətində hakim qüvvəyə çevrilmiş, e.ə. I minillikdə Cənub-qərbi Qafqazın indiki Ermənistan yerləşən xeyli hissəsini işğal etmişlər. Əslində, Hind-Avropa mənşəli ermənilər e.ə. VIII əsrdə Kiçik Asiyaya gəlib burada bir əsr Frikiya dövlətinin koloniyası şəklində yaşamışlar. Bu dövlət dağılandan sonra ermənilər Suriyanın quzey əyalətlərinə səpələnmiş, indiki Muş-Diyarbəkrarası ərazilərə keçən erməni tayfaları e.ə. VI-I əsrlərdə burada hurri-urartu tayfa qalıqları ilə qaynayıb-qarışmış, xristianlığın yayıldığı çağlarda isə əski türk ölkəsi olan Ərmən bölgəsinə sızmışlar. Fərat çayının yuxarı axarlarında yerləşən Ərmən bölgəsindəki hay-türk əlaqələri erməni qaynaqlarında isə çoxlu türkizmlər və qədim ərmən türkləri tarixi haqqında yazılarının yer almasına səbəb olmuşdur. Ermənidilli qaynaqlar erməni əlifbası (V əsr) yaranandan sonra yazılmağa başlansa da, onların yalnız islamdan sonrakı çağlarda üzü köçürülmüş variantları qalmışdır. Köçürmə nüsxələrdə nə qədər dəyişmə, zamana uyğunlaşdırma əməliyyatı

aparılsa da, tekstoloji təhlil türk tarixi üçün xeyli material ortaya çıxarır. İslama qədər ermənilərin, hay sülalələrinin, «erməni» ölkəsinin və kilsə xadimlərinin tarixləri mövzusunda yazılmış əsərlərdəki «hay» adı islamdan sonrakı çağlarda çox vaxt «erməni» adı ilə əvəz olunmuşdur. Qədim subar türklərindən olan erməni boylarına, saka-türkmən boylarından olan ərsaklara aid yazıları «hay-erməni tarixi» adlı kitablardan çıxanda əsl hay tarixi çox aydın cizgilərlə görünür.

Əski ermənidilli qaynaqların gərəkli cəhətlərindən biri də budur ki, hay, tarixçi-yazarlar qədim Babil, Yunan, Aramey arxivlərində bu dillərdə yazılmış və sonralar itib-batan əsərlərdən istifadə etməklə həmin qaynaqlardakı faktları da bizə çatdıra bilmişlər (3, 31-32).

Etnik tariximizə nəzər salsaq bir yüzildə Oğuz türklərinin Cənubdan-Qərbə axınlarının başladığını görürük. Öncə Balxaş gölünün şimalında, oradan da İkiçay arasına (Seyhun-Ceyhun) keçən oğuzların Azərbaycana daxil olmaları isə VII-IX əsrlərə, toplu axınları isə XI əsrə təsadüf edir. Bu axın sonrakı əsrlərə də Şimaldan oğuzlarla qohum olan Kıpçak boylarının Azərbaycana köçləri ilə davam etmişdir.

Orta əsrlərdə Qərbə köç edərək islam dinini qəbul edən oğuz boylarının Türkmən adlandırılması türkmən alimlərinin ciddi həyəcanına səbəb olmuşdur. Biz, bunu Anadolu, Azərbaycan və Türkmənistanda yaşayan türklər olaraq, dərk edir və tariximizlə qurur duyuruq.

Əski türk dünyası olan Qərbi Azərbaycanda saxlanılan müsəlman epiqrafık abidələri də bunu təsdiq edir. İrəvandan bir qədər aralı Cəfərabad (indiki Arqavand) kəndində Qaraqoyunlu sülaləsindən olan Əmir Səyidin oğlu Pir Hüseynin atası 1413-cü ildə tikdirdiyi sərdabə, üzərindəki hikmətli sözlər fıkrimizi təsdiq edir: «Bu müqəddəs qübbəli sərdabə ən böyük, ən gözəl, ən nəcib, xoş xasiyyətli padşahların dayağı, fəqirlərin, səfıllərin arxası, aqillərin və biliklər üçün susamışların himayəçisi, yoxsullar və iztirab çəkənlərə əl tutan, dövlətinə eşq olmuş Əmir Səyidin oğlu Pir Hüseynin buyruğu ilə (2). Əmir Səyidin ölümündən 2-3 il sonra ucaldılmışdır. Çünki 1411-ci ilin xatirə yazısında Pir Hüseynin İrəvan çuxurunun hakimi olduğu göstərilir (7, 124, 134, 162)

1412-ci ilə məxsus Evangeliya xatirə yazılarından görünür ki, bu şəhərin-İrəvanın bərpasna «ədalətli hökmdar Pir Hüseyn başladı». 1414-cü ildə 432 «b» nömrəli əlyazmada qeyd edilir ki, həmin sənədin üzü Oşakanda Yusifin və Səyid oğlu Pir Hüseynin vaxtında köçürülmüşdür. Göstərilən xatirə yazılarında 1411-ci ildən, bəlkə də ondan da əvvəl İrəvan çuxuru Əmir Səyid oğlu Pir Hüseyn tərəfindən idarə edilmiş əmirliyə Qars şəhəri və ətraf mahalların da daxil olduğu göstərilir.

Əmir Səyidin vaxtında İrəvan şəhəri burada hökmranlıq edən Azərbaycan türkləri əmirlərinin iqamətgahı və inzibati mərkəz idi.

Hələ XIV əsrin sonunda Əmir Səyidin hakimiyyəti altında birləşən türkdilli tayfalar, sonralar Səyidin tayfaları adı ilə tanınmağa başladı. Təqribən elə bu vaxtlardan Sürməli düzənliyindəki Araz dərəsi və ona yaxın ərazi Səyidin

Çuxuru adlanmağa başladı. Bu haqda ilk məlumata-toponimə (Üçkilsə-Vağarşapat) 1428-ci ildə yazılmış ərəbdilli bir sənəddə rast gəlirik. A.Papazyan arxiv sənədləri əsasında sübut edir ki, «Ararat vilayətinin inzibati bölgüsünə əsasən knyazlıq torpaqları Azərbaycana tabe olan Gürcüstan vilayətinə daxil idi». Beləliklə, İrəvan çuxurunun Çuxur-Səəd adlandırılması Əmir Səyidin dövrünə - XIV yüzilliyn sonuna təsadüf etməsi şübhəsizdir. Əmir Səyidin və onun varislərinin ərazisi genişləndikcə yeni inzibati ad daha geniş əraziyə yayılır. Simeon İrəvanlının yazdığına görə, ermənilər 1441-ci ildə katolik kilsəsini Sisdən Ecmiadzinə (Üçkilsəyə) köçürəndə haylar (ermənilər) tədricən kilsənin ətrafına toplaşaraq lokal bir ərazidə məskunlaşdılar (12).

Simeon İrəvanlının XVII yüzillikdə Qərbi Azərbaycanda yaşayan Azərbaycan türk tayfaları haqda verdiyi məlumat da diqqəti cəlb edir. O, yazır: «Ecmiadzin mülkü olan Oşakan kəndi iyirmi il bundan əvvəl «muğanlı» adlı müsəlman tayfası tərəfindən zəbt edilmişdir. Bu tayfa Oşakanı özlərinin irsi ata-baba mülkü hesab edir» (6, 37-112). Həmin müəllifin Qriqor katolikosun vaxtında Əştərək, Yeğvard, Ağavnatun kəndlərinin bütün mülkləri ilə birlikdə müsəlmanlara - Azərbaycan türklərinə mənsub olması barədə verdiyi məlumatın xüsusi əhəmiyyəti var. «Heç kim bilmirdi ki, Əştərək, Yeğvard, Ağavnatun nə vaxtsa mülk şəklində müqəddəs taxta (Eçmiadzinə) aid edilmişdir, çünki Qriqor katolikosun vaxtında müsəlmanlar onları zəbt etmiş və nəsildən-nəslə 347 il xüsusi mülk kimi idarə etmişlər». (6, 37-112)

Simeon İrəvanlı ilk dəfə bizi Qərbi Azərbaycanda yaşamış «bayat», «muğanlı», «ayrımlı», «kolanı» və «kürəkənli» tayfaları ilə də tanış edir. Məlum olur ki, XV-XVIII əsrlərdə bu ərazidə məskunlaşaraq, mülk hüququ ilə geniş torpaq mülkiyyətinə yiyələnmiş bu tayfalar Azərbaycan türkləri idilər. Onların başçıları isə tədricən yerli feodallara-iri torpaq sahiblərinə çevrilirdilər. Bu da təsadüf deyil, çünki hələ qədimdən təkcə İrəvan Çuxuru yox, ulu Göyçə Azərbaycan etnik birləşmələrinin, tayfalarının məskəni idi. Əgər bu tayfalar XVII yüzilliyn əvvəllərində belə bura gəlmiş olsalar da, onlar öz ata-baba yurdlarına qayıtmışlar. Hələ XVI yüzilliyn əvvəllərində ulu Göyçəni Qaraqoyunlu Cahanşahın nəvəsi Hüseyn Barani idarə edirdi. İrəvan Çuxur-Səd bəylərbəyliyinin mərkəzi idi. XVII yüzillikdə türk səyyahı Övliyyə Çələbinin məlumatına görə, burada 2600 ev var idi, 10-12 min əhali yaşayırdı. Dövrün nisbətən iri şəhərləri ilə müqayisədə bu rəqəm böyük deyildi. Şəhərdə və ətraf mahallarda əsasən Azərbaycan türkləri yaşayırdılar. Bunu qaynaqlar da təsdiq edir. Fransız missioneri İeuzut Monye İrəvanda olarkən əhalini siyahıya almış və yazmışdır ki, XVII yüzilliyn ikinci yarısında «İrəvan şəhərində yaşayan 4 min əhalinin 1000 nəfəri ermənidir» (10, 272-273). Akademik A.Q.İoannisyan XVIII yüzilliyn birinci yarısına aid qaynağa istinad edərək bu fıkri təsdiq edir. O, yazır: «İrəvan şəhər əhalisinin dörddə bir hissəsini ermənilər idi. Azərbaycan türkləri çoxluq təşkil edirdilər» (8, 177-178). XVIII əsrin 20-ci illərində I Pyotrun Azərbaycana işğalçı yürüşü ərəfəsində İrəvan türkləri dəfələrlə Ərzu-

rum paşasına müraciət etmələri də bunu təsdiq edir. Onlar yazırlar: «Biz də türkük, Siz də türksünüz, tez gəlin, bizi gavurların əlindən xilas edin» (1, 195).

Qərbi Azərbaycanın ruslar tərəfindən işğalından sonra 1828-ci il martın 29-da Pacgevicin tapşırığı ilə Nerses Əstərəkli İrəvana nümayəndə təyin edilmiş, A.Cavcavadzedən xanlıq dövri ilə müqayisəni istəyir. A.Cavcavadze sənədləri nəzərdən keçirdikdən sonra, İrəvan xanlığında ermənilərdən inam «cizyə» vergisinin alınmadığını bildirmişdir. Deməli, burada diqqəti cəlb edəcək sayda erməni olmamışlar. Tarixçi İ.Şopen yazır ki, hətta Rusiyaya birləşmədən sonra (1828) belə ermənilərin İrandan 40 min, Türkiyədən 90 minə qədər Qarabağa, Şərqi Ermənistana intensiv köçürülmələrinə baxmayaraq, İrəvanda ermənilərin sayı yenə də diqqəti cəlb edəcək qədər artmamışdır. Burada yaşayan 11436 nəfər əhalinin 6125 nəfəri erməni, 5338 nəfər isə Azərbaycan türkü idi (12, 468).

İrəvan xanlığı, Rusiya tərəfındən işğal edildiyi vaxt şəhərdə yaşayan 5 mindən çox əhalinin böyük hissəsini Azərbaycan türkləri təşkil edirdilər. İrəvan və onun ətrafında əsrlər boyu Azərbaycan türkləri yaşamış türk tayfalarının hakimiyyəti altında olmuşlar. Tarixçi H.Şahhatunyan Erməni Sovet Ensiklopediyasında yazır ki, 1390-cı ildən 1828-ci ilə qədər (438 il) İrəvan bölgəsini, Azərbaycanın və Naxçıvan xanlarını idarə etmişlər. Əmir Səyiddən (1390-1410) və ya Çuxur-Səəd bəylərbəyliyindən başlayaraq Hüseyn Xan və Həsən Xan (1807-1828) qardaşlarına qədər bütün xanların hakimiyyət illərinin xronoloji ardıcıllıqla verilməsi yuxarıda dediklərimizi təsdiq edir (5,19). Bu fakt bəhs edilən illərdə İrəvanın başda Naxçıvan xanları olmaqla Azərbaycan türklərinin idarə etdiklərini göstərir.

Səlcuq, Osmanlı, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşar, Qaracarlar və b. imperatorluqlarla dolu tariximiz, türklərin ortaq tarixidir və bu tariximizin gətirdiyimiz bu misalları qarşılıqlı fıkir mübadiləsi aparmaqla tədqiqatçını daha diqqətli olmağa sövq edir.

Göründüyü kimi, ermənilərin iddiaları əsassızdır. Çünki bu diyar qədimdən türklərə mənsub olmuşdur. Anadoluda ciddi müqavimətə rast gələn ermənilər Qriqori Arsurinilərin məsləhəti ilə yaratdıqları haqsız qovğaları Qərbi Azərbaycana adladaraq, aborigen əhalni soyqırımına məruz qoymuş, minlərlə günahsız, məsum insanları məhv etmişlər.

## ƏDƏBİYYAT


1. “Krunq” jurnalı, Tpxis, “Meseninereba”, 1863, §101 (əski erməni dilində), 133 s.
2. 816 hicri, rəcəb ayının (15-i-ll oktyabr), 1413.
3. Cəlilov F. İslamaqədərki Azərbaycan tarixi. Bakı: Çaşıoğlu, 2005, 357 s.
4. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: Gənclik, 1996, 462 s.
5. Ermənistan Sovet ensiklopediyası. İrəvan: Sovet Ermənistanı, 1977, c.3; 578 s. (erməni dilində)
6. Simeon İrəvanlı. Cambr. Vağarşabad: Eçmiədzin, 1873 (əski erməni dilində)
7. XV yüzillik erməni xatirə əlyazıları, I cild. İrəvan: Erm.SSR EA, 1955, (əski erməni dilində)

8. XVIII yüzillikdə, erməni-rus münasibətləri // Akad. A.Q.İoannisyanın redaktəsi ilə, c.2, h.1. Erevan: Erm.SSR EA, 1964, 396 s.
9. Дьяконов И.М. История Мидии. Л.: ЛГУ, 1956, 572 s.
10. Линч Х.Б. Армения. т.1, Тифлис: СПб, 1910, 507 s.
11. Орбели И.А. Избранные труды. т.1. Арм.: Арм. АН, 1963, 279 s.
12. Шопен И. Исторический памятник армянской области в эпоху присоединения ее к России. СПб, 1852, 644 s.

## АРМЯНСКИЕ ПРИТЯЗАНИЯ: ИСТОРИЯ И СОВРЕМЕННОСТЬ

С.А.МАМЕДОВ

### РЕЗЮМЕ

В статье на основе эпиграфических данных XVIII века, сохранившихся в нынешнем местечке Джафарлы (ныне Аргаванд) вблизи Еревана подтверждается, что 347 лет назад только племена «баят», «муганлы», «айрымлы», «коланлы» и кюраканлы были господствующими азербайджанскими племенами на территории Аштарак, Йегвард, Агавнатун и властвовали здесь из поколения в поколение с древнейших времен. Это подтверждают и армяноязычные источники, которые прослеживают историю формирования армянского народа примерно с первой половины первого тысячелетия до н.э. не на территории нынешней Армении, а в верхнем течении реки Ефрат.

**Ключевые слова:** армен, тюркизм, тюркология, хай, Арсаг, Арамей, Балхаш

## ARMENIAN PRETENSIONS: HISTORY AND MODERNITY

S.A.MAMMADOV

### SUMMARY

This article deals with the tribes of “Bayat”, “Muganly”, “Ayrymly”, “Kolanly” and “Kuraganly” which were dominant ones in the Azerbaijani territories of Ashtarak, Yegvard, Agavnatun. It was confirmed that according to the epigraphic data of the XVIII century, these tribes had ruled in the preserved site of Jafarly (now Argavand) near Yerevan from generation to generation for 347 years. These were confirmed by the Armenian sources, which have been tracing the history of the Armenian people`s formation from the 1$^{st}$ half of the I millennium BC not on the territory of present Armenia but on the upper reach of the river Euphrates.

**Key words:** arman, turism, Turkology, hay, Arsag, Aramaic, Balkhash